# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borclar hesabına həyata keçirilən layihələrə dair dövri hesabat forması”nın və “Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borclar hesabına həyata keçirilən layihələrə dair yekun hesabat forması”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borclar hesabına həyata keçirilən layihələrə dair dövri hesabat forması” təsdiq edilsin (əlavə olunur).

2. “Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borclar hesabına həyata keçirilən layihələrə dair yekun hesabat forması” təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borc vəsaitlərindən istifadə edən şəxslər:

3.1. Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borclar hesabına həyata keçirilən layihələrə dair yarımillik və illik dövrlər üzrə dövri hesabatı kağız və elektron daşıyıcılarda bu Qərarın 1 nömrəli əlavəsinə uyğun olaraq müvafiq hesabat dövründən sonrakı bir ay müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər;

3.2. Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borclar hesabına həyata keçirilən layihələr üzrə kredit müqavilələri bir ildən az müddətə bağlanılarsa, layihələrə dair

dövri hesabatı kağız və elektron daşıyıcılarda bu Qərarın 1 nömrəli əlavəsinə uyğun olaraq kredit müqaviləsinin əhatə etdiyi müddətin bitməsinə iki ay qalmış Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər;

3.3. Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borclar hesabına həyata keçirilən layihələrə dair yekun hesabatı kağız və elektron daşıyıcılarda bu Qərarın 2 nömrəli əlavəsinə uyğun olaraq layihə bitdikdən sonra bir ay müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borc vəsaitlərindən istifadə edən şəxslər tərəfindən bu Qərarın 1 və 2 nömrəli əlavələrinə müvafiq olaraq təqdim edilmiş məlumatları ümumiləşdirib yarımillik və illik hesabat şəklində kağız və elektron daşıyıcılarda müvafiq hesabat dövründən sonra iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.2. Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borclar hesabına həyata keçirilən layihələr üzrə kredit müqavilələri bir ildən az müddətə bağlanılarsa, layihələrə dair dövri hesabatı kağız və elektron daşıyıcılarda bu Qərarın 1 nömrəli əlavəsinə uyğun olaraq kredit müqaviləsinin əhatə etdiyi müddətin bitməsinə 45 təqvim günü qalmış Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 4 dekabr tarixli 385s nömrəli Sərəncamı ləğv edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 24 may 2022-ci il

№ 207

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 24 may tarixli 207 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**
**1 nömrəli əlavə**

# Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borclar hesabına həyata keçirilən layihələrə dair dövri hesabat forması

## 1. Layihə haqqında ümumi məlumat

| **Sıra №-si** | **Layihənin adı** | |
|---|---|---|
| 1. | İcraçı təşkilat | |
| 2. | Layihənin məqsədi | |
| 3. | Kredit Sazişinin imzalanma tarixi | |
| 4. | Kredit Sazişini təsdiq edən sənədə dair məlumat *(tarixi və nömrəsi)* | |
| 5. | Kredit Sazişinin qüvvəyəminmə tarixi *(kreditorun bildirişinə əsasən)* | |
| 6. | Kredit Sazişinin başa çatma tarixi | |
| 7. | Kreditdən ilkin istifadə tarixi | |
| 8. | Kreditin müddəti | |
| 9. | Kreditin güzəşt müddəti | |
| 10. | Kredit üzrə faiz dərəcəsi | |
| 11. | Kredit üzrə öhdəlik haqqı | |
| 12. | Kredit üzrə digər haqlar *(xidmət haqqı, sığorta mükafatı və s.)* | |
| 13. | Layihənin ümumi dəyəri | |
| 14. | Kreditor | |
| 15. | Kreditin məbləği *(Kredit Sazişinin valyutasında)* | |
| 16. | Kreditin məbləği *(ABŞ dollarında)* | |
| 17. | Kreditdən istifadənin məbləği *(faizi)* | |
| 18. | Hökumət payının məbləği | |
| 19. | Hökumət payından istifadənin məbləği *(faizi)* | |

## 2. Layihənin komponentləri haqqında məlumat

Komponentin adı:
Komponent çərçivəsində nəzərdə tutulmuş işlər:
Komponent üçün nəzərdə tutulmuş məbləğ:
Komponent çərçivəsində cəlb edilmiş podratçı şirkətlər və onlarla imzalanmış müqavilələr (predmet və dəyəri göstərilməklə, satınalma planına müvafiq olaraq).

## 3. Layihənin icrası haqqında məlumat

Layihənin hər komponenti çərçivəsində nəzərdə tutulmuş işlər (müqavilələr üzrə cari hesabat dövrü üçün):
Layihənin hər komponenti çərçivəsində görülmüş işlər (müqavilələr üzrə cari hesabat dövrü üçün):
Layihənin hər komponenti çərçivəsində nəzərdə tutulmuş və görülmüş işlər arasındakı fərqin səbəbi haqqında ətraflı məlumat:
Layihənin hər komponenti çərçivəsində nəzərdə tutulmuş məbləğ (müqavilələr üzrə cari hesabat dövrü üçün):
Layihənin hər komponenti çərçivəsində istifadə edilmiş məbləğ (müqavilələr üzrə cari hesabat dövrü üçün):
Layihənin hər komponenti çərçivəsində nəzərdə tutulmuş və istifadə edilmiş məbləğ arasındakı fərqin səbəbi haqqında ətraflı məlumat.

## 4. Layihə üzrə gələcək dövrlər üçün nəzərdə tutulmuş tədbirlər haqqında məlumat

Hesabat dövründən sonrakı dövrlər (cari ilin növbəti yarım ili üzrə və layihənin sonunadək) üçün komponentlər üzrə görülməsi nəzərdə tutulmuş işlər barədə məlumat:
Hesabat dövründən sonrakı dövrlər (cari ilin növbəti yarım ili üzrə və layihənin sonunadək) üçün komponentlər üzrə istifadə edilməsi nəzərdə tutulan məbləğ (kredit və hökumət payı göstərilməklə).

## 5. Satınalma planının (tətbiq olunursa) son yenilənmiş nüsxəsi

## 6. Digər məlumatlar (vardırsa)

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2022-ci il 24 may
tarixli 207 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**
**2 nömrəli əlavə**

# Azərbaycan Respublikasının adından və ya dövlət zəmanəti ilə alınan borclar hesabına həyata keçirilən layihələrə dair yekun hesabat forması

## 1. Layihə haqqında ümumi məlumat

| Sıra №-si | Layihənin adı | |
|---|---|---|
| 1. | İcraçı təşkilat | |
| 2. | Layihənin məqsədi | |
| 3. | Kredit Sazişinin imzalanma tarixi | |
| 4. | Kredit Sazişini təsdiq edən sənədə dair məlumat *(tarixi və nömrəsi)* | |
| 5. | Kredit Sazişinin qüvvəyəminmə tarixi *(kreditorun bildirişinə əsasən)* | |
| 6. | Kredit Sazişinin başa çatma tarixi | |
| 7. | Kreditdən ilkin istifadə tarixi | |
| 8. | Kreditin müddəti | |
| 9. | Kreditin güzəşt müddəti | |
| 10. | Kredit üzrə faiz dərəcəsi | |
| 11. | Kredit üzrə öhdəlik haqqı | |
| 12. | Kredit üzrə digər haqlar (*xidmət haqqı, sığorta mükafatı və s.)* | |
| 13. | Layihənin ümumi dəyəri | |
| 14. | Kreditor | |
| 15. | Kreditin məbləği *(Kredit Sazişinin valyutasında)* | |
| 16. | Kreditin məbləği *(ABŞ dollarında)* | |
| 17. | Kreditdən istifadənin məbləği *(faizi)* | |
| 18. | Hökumət payının məbləği | |
| 19. | Hökumət payından istifadənin məbləği *(faizi)* | |

## 2. Layihənin komponentləri haqqında məlumat

Komponentin adı:

Komponent çərçivəsində nəzərdə tutulmuş işlər (müqavilələr üzrə):

Komponent çərçivəsində xərclənmiş vəsait (müqavilələr üzrə):

Komponent çərçivəsində əldə edilmiş nəticələr (müqavilələr üzrə).

## 3. Yekun satınalma planı